

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

9 yanvar 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 1 (3713)


# Ədalət tələb edirik!

## Açıq olmayan bütün məsələlər üzə çıxacaq

**Yanvarın 6-da Prezident İlham Əliyev “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinə məxsus Bakı–Qroznı reysini yerinə yetirərkən qəzaya uğramış “Embraer 190” tipli sərnişin təyyarəsinin həlak olan ekipaj heyətinin ailə üzvləri və qəza zamanı sağ qalan təyyarə bələdçiləri ilə görüşüb.**



Prezident görüşdə bildirib ki, hadisənin araşdırılması üçün Dövlət Komissiyası yaradılıb, eyni zamanda, Azərbaycan prokurorluğu cinayət işi açıb. Prokurorluğun işçi qrupları həm Qroznı, həm Aktau şəhərlərinə ezam ediliblər və artıq ilkin məlumatlar var. İstintaqın başa çatmasından sonra tam məlumatın Azərbaycan ictimaiyyətinə çatdırılacağını deyən dövlət başçısı Qroznı şəhərində “kavyor əməliyyatı”nın, yəni, hava sahəsinin bağlanması əməliyyatının təyyarə yerdən vurulandan sonra elan edildiyini bildirib. Bu, bir daha onu göstərir ki, burada çox ciddi cinayət tərkibli məsələlər var. Prezident qeyd edib ki, Rusiyanın dövlət qurumlarının bu hadisəni ört-basdır etməsi və cəfəng versiyalar üzərində dayanması həm təəccüb, həm təəssüf, həm də haqlı olaraq hiddət hissi doğurur: “Məhz pilotların və ekipaj üzvlərinin qəhrəmanlığı nəticəsində 30-a yaxın insan bu qəzadan sağ çıxıb, onların bir neçəsi ağır yaralanmışdır. Onu da bildirməliyəm ki, qəza nəticəsində ən çox həlak olan Azərbaycan vətəndaşlarıdır”. Braziliyada “Qara qutu”ların açılması prosesinin başlanıldığını vurğulayan Prezident İlham Əliyev hələ də açıq olmayan bütün məsələlərin üzə çıxacağını bildirib: “Gün kimi aydın olan məsələlər ondan ibarətdir ki, təyyarə radioelektron mübarizə vasitələri tərəfindən idarəolunmaz vəziyyətə salınmışdır. Bizə bəlli olan digər məsələ ondan ibarətdir ki, təyyarə yerdən açılan atəş nəticəsində zədələnmişdir. Ancaq nə üçün təyyarə Aktau istiqamətinə göndərilmişdir? Bu barədə bizdə hələ ki, məlumat yoxdur. Bu, yerli dispetçerlər tərəfindən qəbul edilmiş qərar əsasında baş verib, yoxsa pilotlar özləri başa düşərək ki, artıq Rusiyanın hava məkanında radioelektron mübarizə vasitələri onlara eniş etmək üçün imkan verməyəcək və özləri bu seçimi ediblər. Bu barədə hələ ki, bizdə məlumat yoxdur. Təbii ki, “qara qutu”lar açılandan sonra bütün bu məlumatlar olacaq”.

Prezident vurğulayıb ki, əgər Qroznı şəhəri öz ərazisində Rusiyanın hava məkanının bağlanması üzrə vaxtında tədbirlər görsəydi, yerüstü xidmətlərin bütün qaydalarına əməl olunsaydı, həmçinin Rusiya Federasiyasının silahlı qüvvələri və mülki xidmətləri arasında koordinasiya olsaydı, onda bu faciə də baş verməzdi. “Qara qutu”ların Braziliyaya göndərilməsinin obyektiv araşdırılma üçün vacibliyini söyləyən dövlət başçısı ilk dəqiqələrdən və ya saatlardan Rusiya Federasiyası rəsmi dairələri tərəfindən bu faciəni obyektiv araşdırmaq cəhdi görülsəydi, “qara qutu”ların Dövlətlərarası Aviasiya Komitəsi tərəfindən açılmasının həyata keçirilməsinə razılıq veriləcəyini söyləyib. Amma işin ört-basdır edilməsi, bunu hansısa quşların və ya qaz balonunun adına çıxmaq cəhdi bu strukturun təhqiqatının obyektivliyinə ciddi şübhələr yaradıb.

“Mən hələ ki, cinayət işinin bütün materiallarını açıqlamaq istəmirəm, onun ilkin təhqiqatı və nəticələri mənə məruzə edilib. Amma əminliklə deyə bilərəm ki, Azərbaycan vətəndaşlarının bu qəzada həlak olmasının günahı Rusiya Federasiyası nümayəndələrinin üzərindədir. Biz ədalət tələb edirik, günahkarların cəzalandırılmasını tələb edirik, tam şəffaflıq və insani davranış tələb edirik”, - deyə dövlətimizin başçısı bildirib.

# Xalq sevgisi

## Xalq Müzəffər Liderinin yanındadır

“Mən bilirəm ki, arxamda Azərbaycan xalqı dayanır. Azərbaycan xalqı da bilir ki, mən onun arxasında dayanıram, yəni, bu, xüsusi bir hissdir. Bunu yəqin ki, bir çoxları yaşamayıb. Xüsusilə hər iki dövrdə ölkəyə rəhbərlik edən şəxs kimi bəlkə də bu, unikal təcrübədir”.

Bu fikri Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bildirib.

“Mən azad edilmiş torpaqlarda bəlkə də 100 dəfədən çox olmuşam və hər dəfə gedəndə özümə eyni sözləri deyirəm, eyni sevinci bölüşürəm. Sanki birinci dəfə gəlmişəm oraya. Biz elə ölkədə yaşayırıq ki, doğrudan da fəxr edə bilərik ölkəmizlə, ilk növbədə, xalqımızla”, - deyə dövlətimizin başçısı vurğulayıb.

# Əməkhaqları artdı

## Prezident Sərəncam imzalayıb

Azərbaycanda dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqları artırılıb. Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb. Sərəncamla dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşları bu ilin yanvarın 1-dən orta hesabla 15 faiz artırılıb.

# Sabitliyimiz əbədidir

## Dövlət başçısı xalqa müraciət edib

Bu gün dünyada baş verən hadisələr hamımızın gözünün qarşısındadır. Yeni müharibələr, qarşıdurmalar, münaqişələr alovlanır.

Bu fikirləri Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində söyləyib.

Dünyanın müxtəlif bölgələrində qanlı toqquşmaların davam etdiyini vurğulayan dövlətimizin başçısı deyib: “Azərbaycan isə sülh, əmin-amanlıq, təhlükəsizlik və sabitlik şəraitində yaşayır. Əminəm ki, bundan sonra sabitlik və əmin-amanlıq əbədi olacaqdır”.

Prezident müraciətində onu da vurğulayıb ki, ötən ilin əvvəlində qarşıya qoyulan bütün məsələlər öz həllini tapıb.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev dekabrın 31-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əməkdaşlarının təltif edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev dekabrın 29-da “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinə məxsus “Embraer 190” tipli sərnişin təyyarəsi Bakı–Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirərkən baş vermiş qəza zamanı yüksək peşəkarlıq və şücaət göstərmiş şəxslərin təltif edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev dekabrın 29-da qaz təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev dekabrın 28-də Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında Sərəncam imzalayıb.

# Turizm potensialı genişlənir

## Azərbaycan cəlbedici məkana çevirilib

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yanvarın 2-də Şahdağ Turizm Kompleksinin ərazisində inşa edilən “Lakeside” hotelində aparılmış işlərlə tanış olublar.

Yeni hoteldə qonaqların istirahətinin hərtərəfli, dolğun və mənalı təşkili üçün geniş imkanlar yaradılacaq. Burada ümumilikdə 122 nömrə olacaq.

Hoteldə idman, “Kids Care” zonaları, işgüzar tədbirlər üçün müasir konfrans zalı və iclas otağı, xizək həvəskarları üçün xizək məktəbi və iki xizək simulyatoru ilə təchiz edilmiş mərkəz fəaliyyət göstərəcək.

Son illərdə dövlətimizin başçısının diqqəti və qayğısı nəticəsində ölkəmizdə turizm infrastrukturunun daha da inkişaf etdirilməsi istiqamətində çox mühüm layihələr həyata keçirilir. Müasir turizm infrastrukturunun yaradılması sayəsində insanlarımızın, eləcə də ölkəmizə gələn turistlərin rahat istirahəti üçün hər cür şərait yaradılır. Bunun nəticəsində həm yeni iş yerləri açılır, həm daxili turizmin potensialı genişlənir, həm də Azərbaycana gələn xarici turistlərin sayı artır. Bütün bunlar, eləcə də ölkəmizdə hökm sürən sabitlik və əmin-amanlıq Azərbaycanı dünyanın ən cəlbedici məkanlarından birinə çevirib.

Sonra dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Şahdağ Turizm Kompleksinin ərazisində inşa edilən Xizək Stadionu Kompleksinin “Xizək klubu” binasının tikintisi ilə tanış olublar.

Xizək Stadionu Kompleksində yaradılmış yamac Beynəlxalq Xizək və Snoubord Federasiyasının bütün tələb və standartlarına tam cavab verir. Burada idmanın bu növü üzrə müxtəlif beynəlxalq yarışların, o cümlədən dünya və Avropa çempionatlarının keçirilməsi üçün hərtərəfli şərait yaradılacaq. İdman kompleksində idmançıların, məşqçilərin və azarkeşlərin rahatlığı üçün bütün məqamlar nəzərə alınacaq. Burada 500 nəfərlik tribuna quraşdırılacaq.

Qeyd edək ki, artıq bir neçə ölkə öz idmançılarının Şahdağ Turizm Kompleksinin ərazisində inşa olunan Xizək Stadionu Kompleksində təlim-məşq toplantıları keçirmələri üçün müraciət edib.

Beləliklə, burada yaradılan şərait bir daha Azərbaycanın idman ölkəsi kimi dünyada beynəlxalq rolunu daha da artırmaqla yanaşı, ölkəmizdə idmanın bir çox növü üzrə nüfuzlu yarışların keçirilməsi üçün mühüm layihələrin icra olunduğunu, müasir infrastrukturun qurulduğunu nümayiş etdirir.

Xizək Stadionu Kompleksinin istifadəyə verilməsi ilə gənc nəsildə idmanın bu növünə olan maraq artacaq, bu sahədə idmançılar yetişəcək, ölkəmizi beynəlxalq səviyyəli idman yarışlarında layiqincə təmsil edəcəklər.

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şahdağ Turizm Kompleksində istirahət edən insanlarla görüşdülər.


Nazir vətəndaşları qəbul edib 2

İctimai dəstəkli mübarizəmiz 3

Daha bir operativlik örnəyi 3

Sükan arxasında əməl edək... 4

## RESPUBLİKA XƏBƏRLƏRİ

### Seçkiqabağı təşviqat başlayıb

Bələdiyyə seçkiləri ilə bağlı yanvarın 6-dan seçkiqabağı təşviqat başlayıb. Təşviqat kampaniyası yanvarın 28-dək davam edəcək. Kampaniya çərçivəsində Seçki Məcəlləsinə əsasən, qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri təşviqat işlərini apara bilərlər. Son məlumata görə, bələdiyyə seçkilərində 118 seçki dairəsini əhatə edən 685 bələdiyyə üzrə 15 min 696 namizəd qeydə alınıb.

### Karantin rejimi uzadılıb

Azərbaycanda xüsusi karantin rejiminin müddətinin uzadılması ilə bağlı qərar yanvarın 1-də qüvvəyə minib. Bu, Baş nazir Əli Əsədovun imzaladığı "Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması haqqında" qərarda əskini tapıb. Koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə karantin rejiminin müddəti aprelin 1-i saat 06:00-dək uzadılıb.

### Yaşayış minimumu artdı

Yanvarın 1-dən Azərbaycanda yaşayış minimumu və ehtiyac meyarının həddi artıb. Bu il üçün yaşayış minimumu ölkə üzrə 285 manat, əmək qabiliyyətli əhali üçün 305 manat, pensiyaçılar üçün 232 manat, uşaqlar üçün 246 manat məbləğində müəyyən olunub. Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2025-ci il üçün ehtiyac meyarının həddi 285 manat məbləğində təsdiq edilib.

### Pensiya üçün daha çox vəsait ayrılıb

2025-ci ildə də pensiyaların ödənilməsi xərclərində artım dinamikası davam edəcək. Cari ildə əmək pensiyalarının ödənilməsi xərcləri üçün 7 milyard 210 milyon 530 min manat nəzərdə tutulub ki, bu da keçən il müvafiq istiqamətdə ayrılan vəsaitdən 710 milyon manat və ya 11 faiz çoxdur.

### Dövlət qayğısı davam edəcək

Bu il şəhid ailələri və müharibə əlillərinə daha 1 000 mənzil veriləcək. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib ki, belə şəxslərə Vətən müharibəsindən sonra 6,8 min, ümumən ötən dövrdə 16 minədək mənzil təqdim edilib. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə postmüharibə dövründə 567, ümumən 7,8 min avtomobil verilib.

### Məşğulluq təmin edilir

2020-2025-ci illəri əhatə edən "Məşğulluğa Dəstək Layihəsi"nə bu il daha 5 minədək şəxsin cəlb edilməsi nəzərdə tutulur. Layihə gənclər, qadınlar, əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, aztəminatlı ailələrin üzvləri və digər həssas qruplara aid işsiz şəxslərin istehsal və xidmət sahələri üzrə avadanlıqlar əldə edərək əmək bazarına çıxışına imkan yaradır. Artıq 20 min şəxs kiçik bizneslərini yaradıb. Bu ilin sonunadək həmin rəqəmin 25 minə çatdırılması planlaşdırılır.

### Azərbaycana turist axını

Ötən ildə Azərbaycana 2 milyon 626 min 838 xarici vətəndaş və vətəndaşlığı olmayan şəxs səfər edib. Dövlət Turizm Agentliyinin məlumatına görə, bu, 2023-cü illə müqayisədə 26 faiz çoxdur. Hesabat dövründə Azərbaycana ən çox turist 731 009 nəfər olmaqla Rusiyadan gəlib. 2-ci yerdə Türkiyə (426 241 nəfər), 3-cü yerdə isə Hindistan (243 589 nəfər) qərarlaşıb.

### Qarabağ ölkəyə işıq verir

Ötən il Qarabağ və Şərqi Zəngəzurdakı 32 su elektrik stansiyasında "AzərEnerji" ASC tərəfindən 550 milyon kilovat-saatadək ekoloji cəhətdən təmiz yaşıl enerji istehsal olunub. Həmin enerjinin üçdə biri kilovat-saata yaxını işğaldan azad edilən ərazilərin enerji tələbatını ödəyib, qalan üçdə iki hissəsi isə respublika enerji sisteminə ötürülərək ölkənin digər yerlərinin tələbatına yönləndirilib.

### Tikinti işlərində yeni mərhələ

Cəbrayıl və Qubadlı şəhərlərində modul tipli xəstəxana tikiləcək. Artıq həmin xəstəxanaların qurulması ilə əlaqədar layihə-smeta sənədlərinin hazırlanmasına başlanılıb. Xocalı rayonunun inzibati ərazisində isə televiziya qülləsi (teleqüllə) inşa olunacaq. Teleqülləni inşa edəcək tikinti şirkəti ilə müqavilə bağlanıb.

# Nazir vətəndaşları qəbul edib

## Problemlərin həlli ilə bağlı tapşırıqlar verilib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov yanvar ayının 7-də və 8-də İsmayıllı Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**









Nazir əvvəlcə İsmayıllı rayonundakı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra İsmayıllı Rayon Polis Şöbəsində İsmayıllı, Göyçay, Ağsu, Şamaxı, Qobustan şəhər və rayonlarından qəbula gələn 294 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

**Vətən müharibəsinin 23 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 196 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.**

*"Polis"*

# Xidmət məsuliyyətdir

## Etimad və inam gənclərə dəstəyin ifadəsidir

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin Bakı şəhərində növbəti sıra baxışını keçirib. Sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 223 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 12 nəfəri Vətən müharibəsi iştirakçısıdır.






Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

**Qeyd edək ki, Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən 2024-cü il ərzində respublikanın şəhər və rayonlarında ümumilikdə 18 sıra baxışı keçirilib. Sıravi və kiçik rəis heyəti vəzifələrində xidmətə qəbul üçün Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət edərək sıra baxışlarında iştirak etmiş gənclərdən 3061 nəfər seçim turunun növbəti mərhələlərinə buraxılıb ki, onlardan da 398 nəfəri Vətən müharibəsi iştirakçısıdır.**

# Ali diqqətin göstəricisi

## Yeni bina vətəndaşa xidmətin bariz nümunəsidir

Amalı xalqına və vətəninə sədaqətlə xidmət etmək olan, sabitliyin, ictimai asayişin keşiyində ayıq-sayıq dayanan, cinayətkarlıqla qətiyyətli mübarizə aparan daxili işlər orqanları əməkdaşlarının xidmət şəraitinin yaxşılaşdırılması, maddi texniki bazasının daha da gücləndirilməsi, şəxsi heyətin sosial müdafiəsinin təmini Prezident İlham Əliyev tərəfindən hər zaman diqqətdə saxlanılır. Bu istiqamətdə son olaraq müasir standartlara cavab verən Nərimanov Rayon Polis



İdarəsinin yeni inzibati binasının istifadəyə verilməsi də ölkə rəhbərinin vətəndaşa xidmətin, onun məmnunluğunun təmin olunmasına ali diqqətinin və qayğısının növbəti əyani göstəricisidir. Polis idarəsinin yeni inzibati binasının inşaat işləri müasir standartlara uyğun aparılıb, xidməti və yardımçı otaqlar elmi-texniki yeniliklərə əsaslanan zəruri avadanlıq, kompüter sistemi, inventarlarla təmin olunub və burada əməkdaşların xidməti səmərəli təşkil etmələri üçün hər bir şərait yaradılıb.

Yeni inşa edilən beş mərtəbəli inzibati binada iş və iclas otaqları, akt zalı, yeməkxana kompleksi, eləcə də məişət, təsərrüfat, texniki və digər otaqlar yerləşdirilib.

Yeni inzibati binada şəxsi heyətin fiziki hazırlıq səviyyəsinin daha da yüksəldilməsi məqsədilə müasir avadanlıqlarla təchiz olunmuş idman zalı da istifadəyə verilib.

# İctimai dəstəkli mübarizəmiz

## Cəmiyyət polislə həmrəylik nümayiş etdirir

**Sosial şəbəkələr müasir dövrdə cəmiyyətə ən çox təsir göstərən platformaya çevrilib. Əlbəttə, onların mütərəqqi təsirləri daha çoxdur.**

Ancaq, xüsusən, gənclər arasında geniş yayılan "Tik-Tok"da etik normalara uyğun olmayan, hətta, qanunsuz məzmunların yayılması da tez-tez müşahidə olunur.

Bu platforma ilk olaraq elə təəssürat yaradır ki, həyatda özünü təsdiq etməyənlər, arzularını reallaşdıra bilməyənlər məhz orada "toplaşıb". Sanki tiktokda məşhurlaşanlar bacarıqları ilə deyil, bacarıqsızlıqları ilə yarışırlar. Əxlaqsız davranış, ədəb-ərkan qaydalarını heçə saymaq birilərinə "tanınmaq"la yanaşı, nə qədər qəribə olsa, qazanc da gətirir. Tiktoker adı verilən belə "fenomenlərin" davranışından ikrah duyan ictimaiyyət arasında, ümumiyyətlə bu platformanın qadağan olunması zəruruliyini dilə gətirənlər də az deyil.

Belə görünür ki, sosial mediada xüsusilə əxlaqsız davranlara qarşı cəmiyyətin böyük əksəriyyətində aqresiya var və necə deyərlər, qurunun oduna yaş da yanır. Qanunun isə bu məsələdə tutduğu mövqe qəti və birmənalıdır. Çünki qanunçuluğun mahiyyətində həm də ictimai əxlaqi dəyərlərin qorunması var. Hansı ki, bu dəyərlərin tapdanması cəmiyyət üçün ciddi təhlükə hesab edilir. Sosial mediada canlı yayıma çıxıb təhqir, zorakılığa çağırış, hədə-qorxu gəlmə kimi davranışlar sərgiləyənlərin əməllərinin açıq-aşkar ictimai qayda və əxlaq normalarına zidd olduğunu vurğulamağa gərək varmı? Deyəsən, buna yol verənlər mənəvi və hüquqi məsuliyyətlərini ya anlamırlar, ya da anlamaq istəmirlər. Ancaq unutmaq olmaz ki, bilərəkdən və ya bilməyərəkdən pozulmasından asılı olmayaraq, qanunun öz gücünü göstərmək kimi təbii bir xarakteri mövcuddur. Yəni cəmiyyətin dəyərlərini tapdalayıb, sonra heç nə olmamış kimi yola davam etmək mümkün deyil.

Ötən ilin son ayında polisin sosial mediada əxlaqsızlığın təbliğinə qarşı keçirdiyi əməliyyatlar bu baxımdan olduqca diqqətçəkən idi. Birincisi, ona görə ki, bu, ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılandı. İnsanlar sosial medianın verdiyi imkanlardan sui-istifadə edib onların inandığı dəyərləri sarsıtmağa cürət edənlərin layiqli cəzalarını almalarını məmnuniyyətlə qarşıladı. Yəni polis yenə güclü ictimai dəstək aldı. İkincisi, polisin apardığı ilkin araşdırmalar göstərdi ki, əxlaqsızlığın təbliğində günahlandırılan bu adamların daha ağır cinayətlərdə şübhəli bilinmələri üçün kifayət qədər ciddi əsaslar var. Ona görə inzibati qaydada həbs edilmiş tiktokerlər cinayət məsuliyyətinə də cəlb edildilər və məhkəmə onların bir neçəsi barəsində həbs qətimkan tədbiri seçdi.

Təəssüf hissi ilə qeyd etməliyik ki, əxlaqi dəyərlərin qorunması kimi önəmli məsələdə insanların hamısı eyni düşünmür. Belə olmasaydı bayağılıqla, əxlaqsızlığın təbliği ilə adları yanaşı çəkilən tiktokerlər bu qədər ictimailəşməzdilər. Onlara baxıb əylənən, hədiyyə, pul göndərənlərin "səylərinin" nəticəsidir bu obrazlar. Belə platformalarda əylənən yeniyetmələrin daha sonra oxşar hərəkətləri təkrarlamağa, kimisə təqlid etməyə çalışması qaçılmazdır. Elə bu günlərdə sosial şəbəkələrdə Lənkəranda bir neçə yeniyetmənin qəbiristanlıqda qeyri-etik hərəkətlər etməsini əks etdirən görüntülərin yayılması onların da qeyri-adekvat davranışla diqqət çəkmək istəyinin bariz bir nümunəsi deyilmi?

Maraqlıdır ki, fenomenləri maddi qazanc təmin edərək onları, öz təbirləri ilə desək, trenddə saxlayanların ciddi ictimai yükü olan layihələrə sponsorluq etmək istəyi yoxdur, daha doğrusu, heç yadlarına da düşmür. Bu durum bizə bir qədər də ötən əsrin əvvəllərində "Əkinçi" və ya "Molla Nəsrəddin" jurnallarına abunə olmayan, maarifpərvər ziyalılara maddi dəstək verməyən soydaşlarımızın inadını da xatırladır.

İctimai yükü olan layihə demişkən, artıq hər kəsə məlumdur ki, Daxili İşlər Nazirliyi son illərdə antinarkotik təbliğatının gücləndirilməsi məqsədilə ardıcıl müsabiqələr təşkil edir. Bu müsabiqələrdə bir qayda olaraq sosial mediada fəal olan şəxslər iştirak edirlər.Polisin sosial şəbəkələrdə əxlaqsızlığı təbliğ edənlərə qarşı əməliyyatlar keçirdiyi ərəfədə antinarkotik təbliğatında iştirak edən, ortaya vətəndaş mövqeyi qoyanlar Nazirliyə dəvət edilib mükafatlandırıldılar.

Bu onu göstərdi ki, internet, sosial platformalar hər kəsin özünü ifadə edə bildiyi məkandır. Cəmiyyətə faydalı ola bilmək üçün şərait yaradılır, gənclər hətta buna təşviq edilir. Bəli, internet hamıya hüdudsuz imkanlar yaradır, ancaq, real həyatda olduğu kimi, orada da hər kəsin azadlığı başqasının azadlıqları başlayan yerdə bitir.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Daha bir operativlik örnəyi

## Xidmətdə əsas meyar vətəndaş məmnunluğudur

**Mühafizə etməyin məsuliyyətini həmkarlarımız, mühafizə olunmağın üstünlüklərini vətəndaşlarımız yaxşı bilirlər. Aparılan maarifləndirmə tədbirləri bu sahədə işləri xeyli asanlaşdırıb.**

Etibarlı keşikçilər, necə deyərlər, peşəkarlar iş başında olanda təhdidlərdən qorunmağa ehtiyac qalmasa da öz əmlakını, evini qorumaq üçün polisə etibar edənlər harada olmalarından asılı olmayaraq rahatlığın komfortunu yaşayırlar.

Ötən ilin sonlarında, daha doğrusu bayram ərəfəsində və səhər saatlarında Sabunçu rayonu ərazisində oğurluğa cəhdin qarşısı vətəndaşların sayıqlığı, polisin operativliyi sayəsində alınıb.

Belə ki, xüsusi texniki vasitələrlə qorunan mənzildən Baş Mühafizə İdarəsinin Kompüterləşdirilmiş Mərkəzi Mühafizə Məntəqəsinə "həyəcan" siqnalı daxil olub. Sabunçu Rayon Mühafizə İdarəsinin əməkdaşları dərhal hadisə yerinə yollanıblar.

Polis serjantları Anar Muradov və Təbriz Əliyev həyətə daxil olarkən evin birinci mərtəbəsindəki pəncərələrin və nəfəsliyin üzərindəki dəmir barmaqlıqları qopararaq mənzilə daxil olmaq istəyən şəxsə əməlini həyata



keçirməyə imkan verməyiblər. Mənzilə kənar müdaxilənin qarşısını alan polislər dərhal hadisə barədə Sabunçu RMİ-nin növbətçi hissəsinə, eləcə də ərazi üzrə Sabunçu RPİ-nin 13-cü Polis Bölməsinə məlumat veriblər.

Bölmədə aparılan araşdırma zamanı məlum olub ki, oğurluq etməyə cəhd göstərən şəxs əvvəllər oğurluq cinayətlərinə görə məhkum olunmuş, hazırda Bakı şəhərində kirayədə yaşayan V.Seyidovdur.

O da məlum olub ki, həmin şəxs dekabrın 29-da mühafizə polisi tərəfindən MMM xidmətilə mühafizə olunan evin həyətinə daxil olaraq vətəndaş N.Yusifliyə məxsus "Mersedes" GL markalı avtomobilin şüşəsini sındıraraq salondan içərisində 200 manat olan qadın çantasını da oğurlayıb.

Hazırda araşdırılması 13-cü Polis Bölməsində davam etdirilən hər iki faktla bağlı, eləcə də hesabat dövrünün nəticələri barədə qəzetimizə məlumat verən Rayon Mühafizə İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı İbrahim Ağalarlı dedi ki, oğurluğa cəhdlərin, digər cinayət hadisələrinin qarşısının alınmasında və yaxud xidmət zamanı ictimai asayişin qorunmasında əməkdaşların xüsusi peşəkarlıq göstərmələrinin əsas səbəblərindən biri də fiziki və peşə hazırlıqlarının artırılmasına yönələn tədbirlərdir.

Qeyd edək ki, ötən il ərzində İdarənin əməkdaşları qorunan obyektlərdə 12 oğurluq hadisəsinin qarşısını alaraq hadisə yerində 8 şübhəli şəxsi saxlayıblar. Eyni zamanda, 5 fakt üzrə digər cinayətlərin də qarşısı alınıb, saxlanılan 5 nəfərdən biri narkotik istifadəçisi olub, üzərindən də narkotik vasitələr aşkarlanaraq götürülüb.

Bu kimi cinayətləri önləmək üçün əmlak sahibləri ilə mütəmadi görüşlər keçirdiklərini qeyd edən rəis müavinin sözlərinə görə, aparılan maarifləndirici-izahedici işlər obyekt və mənzillərin mühafizəyə qəbul edilməsinə təsirsiz ötüşmür. Ümumən İdarə tərəfindən hazırda 1852 obyekt qorunur ki, onlardan 1254-ü mənzildir.

Polis polkovnik-leytenantı vətəndaşların obyektlərinin, mənzillərinin mühafizəyə cəlb edilməsində Sabunçu Rayon Polis İdarəsinin əməkdaşlarının da yaxından kömək etdiyini, xüsusən bölmə və sahə rəisləri ilə birgə iş aparıldığını vurğuladı.

# Ötən ilin son "Açıq qapı"sı

## Valideynlərinin də, onların da seçimi Polis Akademiyasıdır



Ötən ilin yekununa sayılı günlər qalmış Polis Akademiyasında artıq ənənə halını alan "Açıq qapı" tədbirinin qonağı Bakı şəhəri Binəqədi rayonu Əliağa Şıxlınski adına 135 nömrəli tam orta məktəbin şagirdləri, həmçinin DİN-in Polis Akademiyasında təhsil almaq arzusunda olan Oğuz rayonunun məktəbliləri və onların valideynləri olub.

Şagirdlər Akademiyada yaradılmış təhsil mühiti, o cümlədən tədris korpusları, idman meydançaları və zalları, kriminalistik təlim şəhərciyi, mühazirə zalları, elektron kitabxana, "İnformasiya təhlükəsizliyi" fakültəsinin ən müasir texniki avadanlıqlarla təchiz olunmuş elmi-tədqiqat laboratoriyaları, təlim mərkəzi, auditoriyalar, kursant yeməkxanası, qapalı atıcılıq tiri və idman şəhərciyi ilə tanış olublar.

Qonaqlara Polis Akademiyasının tarixi, kursantların maddi, sosial təminatları və akademiyada təhsilin üstünlükləri barədə geniş məlumatlar verilib, "Virtual Akademiya" platformasından istifadə edərək tədris müəssisəsi ilə tanış olmaq imkanı da onların nəzərlərinə çatdırılıb.

Sonda məktəblilərə Polis Akademiyası barədə ətraflı məlumatlar yer alan lifletlər paylanılıb və xatirə şəkilləri çəkilib.

# Polis vətəndaşı sevindirdi

## İtmiş 10 min manat sahibinə qaytarıldı

Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin rəisi polis polkovnik-leytenantı Elşad Hacıyev məlumat verib.

"On min manat itirən vətəndaş məlumatı mətbuatda oxuduqdan sonra idman arenasında polis əməkdaşlarına yaxınlaşıb. Həmin vəsait tam həcmdə aktlaşdırılaraq Səbail Rayon Mühafizə İdarəsinin əməkdaşları tərəfindən sahibinə qaytarılıb. Pul vəsaiti bir neçə şəxsin əməkhaqqı məvacibi olub. Jurnalist



həmkarlarıma təşəkkür edirəm", - Elşad Hacıyev bildirib.

# Yeni ilin ilk günündə

## Keçmiş məhkum narkotiklə saxlanıldı

Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən Abşeron rayonu ərazisində yanvar ayının 1-də keçirilən tədbir nəticəsində əvvəllər dəfələrlə məhkum olunmuş 43 yaşlı Vaqif Səfərov saxlanılıb. Ondan 30 kiloqrama yaxın tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş marixuana aşkarlanıb. Bu şəxs narkotikləri şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşının vasitəsi ilə əldə edib Abşeron rayonunda ayrı-ayrı ünvanlara yerləşdirərək bu barədə həmin narkotacirə məlumat verməyi planlaşdırıb. Saxlanılan şəxs ölkə ərazisində narkotiklərin əsas tədarükçülərindən biri olub.

# İrandan gələn "sovqat"

## Faktla bağlı cinayət işi başlanılıb

Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları həyata keçirilən növbəti əməliyyat nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil edən əvvəllər məhkum olunmuş 49 yaşlı Zaur Əzizovu saxlayıblar. Ondan 2 kiloqramdan artıq yüksək təsiredici xassəyə malik narkotik vasitə olan həşiş qətranı və 4 kiloqrama yaxın marixuana aşkarlanıb. Saxlanılan şəxs ifadəsində narkotikləri şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşından satış məqsədi ilə əldə etdiyini bildirib. Faktla bağlı cinayət işi başlanılıb, məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Avtomat satmaq istəyirdi

## Şübhəli şəxs keçmiş məhkumdur

Bərdə Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri növbəti əməliyyat zamanı əvvəllər məhkum olunan Şahlar Həsənov şübhəli şəxs qismində saxlanılıb. Onun yaşadığı ünvandan "Kalaşnikov" avtomatı, 29 ədəd patron və patron darağı aşkarlanıb. O, izahatında əldə etdiyi silah-sursatı 2000 manat müqabilində satmaq üçün özündə saxladığını bildirib.

Faktla bağlı cinayət işi başlanılıb, məhkəmənin qərarı ilə Ş.Həsənov barəsində həbs qətimkan tədbiri seçilib.

# Polis əməliyyat keçirdi

## Oğrular və dələduzlar ifşa olundu

Nizami rayonunda yerləşən evlərin birindən oğurluq edilməsi və nəticədə zərərçəkənə ümumilikdə 6850 manat maddi ziyan vurulması barədə polisə məlumat daxil olub. Nizami RPİ 23-cü Polis Bölməsi əməkdaşlarının keçirdikləri tədbirlərlə oğurluq əməlini törətməkdə şübhəli bilinən 46 yaşlı M.Teymurova saxlanılıb.

Nizami RPİ 24-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə isə bir nəfərin 5695 manatını dələduzluq yolu ilə ələ keçirən, əvvəllər də eyni əmələ görə məhkum olunmuş Ş.Bəyəliyevin saxlanılması təmin edilib.

# Telefon oğruları tutuldu

## Hər iki faktla bağlı araşdırma aparılır

Binəqədi rayonu ərazisində mağazaların birindən 1000 manat dəyərində mobil telefonun oğurlanması barədə polisə məlumat daxil olub. Keçirilən tədbirlərlə hadisəni törədən əvvələr məhkum olunmuşlar E.Abdullayev və P.Ağayeva müəyyən edilərək polis əməkdaşları tərəfindən saxlanılıb. Paytaxtın Nəsimi rayonunda da analoji hadisə baş verib. Azadlıq prospektində yerləşən ticarət mərkəzlərinin birindən 4100 manat dəyərində mobil telefon oğurlamaqda şübhəli bilinən R.Heydərova da polis əməkdaşları tərəfindən müəyyən olunaraq saxlanılıb.

# Polis Akademiyasına müsabiqə başlayıb

## Şərtlər, yaradılan şərait və perspektivlər

**Daxili İşlər Nazirliyi Polis Akademiyasına əyani təhsilə III qrupdan “Hüquqşünaslıq” ixtisasına 500, I qrupdan “İnformasiya təhlükəsizliyi” ixtisasına 25 kursantın qəbuluna dair müsabiqə elan edir.**










Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu 165 sm-dən az olmayan, yaşı 16-dan 18-dək, 11-ci sinifdə oxuyan və ya tam orta təhsilli, həqiqi hərbi xidmətə yararlı olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

Xüsusi təyinatlı təhsil müəssisəsinə sənədlərin qəbulu 2025-ci il fevralın 23-dək namizədin daimi qeydiyyatda olduğu yer üzrə polis idarə və ya şöbələrində həyata keçirilir.

“Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisas fənləri üzrə müsabiqədən keçən abituriyentlərin siyahısı Dövlət İmtahan Mərkəzinə göndərilir.

İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Seçilən abituriyentlərlə daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanır.

Tədris Azərbaycan dilindədir, müddəti 4 ildir.

Kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, Akademiyanın ərazisində yerləşən müasir standartlara tam cavab verən yataqxanada yaşayırlar.

Məzunlara “Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisasları üzrə “polis leytenantı” xüsusi və “ehtiyatda olan leytenant” hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

**Qəbul qaydaları haqqında daha ətraflı məlumatları (012)-590-97-76, (012) 454-12-78 nömrəli telefonlar, habelə Polis Akademiyasının 8880 qaynar xətti vasitəsilə və ya www.mia.gov.az, www.pa.edu.az internet saytlarından, Polis Akademiyasının rəsmi instaqram və feysbuk sosial şəbəkələrindən əldə edə bilərsiniz.**






# Kursantlarımız Olimpiadanın qalibidir

## Onlar hüquqi biliklərini nümayiş etdiriblər

Azərbaycan Respublikası Vəkillər Kollegiyası və Hüquq və İnsan Haqları İnstitutunun birgə təşkilatçılığı ilə Prezident İlham Əliyevin doğum gününə həsr edilmiş “Qalib Azərbaycan” adlı II Hüquq Olimpiadasının qalibi Polis Akademiyasının komandası olub. Xatırladaq ki, ötən il dekabrın 28-də olimpiadada iştirak edən komandaların mükafatlandırılma mərasimi keçirilib.



Mərasimdə Polis Akademiyasının rəisi polis general-mayoru Canpolad Daanov və Akademiyanı təmsil edən IV kurs kursantı komandanın kapitanı Yunis Əliyev iştirak ediblər.

# Əməkdaşların nəzərinə!

## Magistr təhsili almaq istəyənlər müraciət edə bilərlər

**Azərbaycan Respublikası DİN-in Polis Akademiyası dövlət hesabına 2 illik əyani təhsil əsasında hüquqşünaslıq ixtisasının “Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası” ixtisaslaşması üzrə magistraturaya qəbul elan edir.**

Əməkdaşların sənədlərinin qəbulu və tədris işlərinin tərtibatı onların xidmət yeri üzrə həyata keçirilir. Akademiyanın magistraturasına qəbul olunmaq istəyən əməkdaş 2025-ci ilin fevral ayının 16-dək əsaslandırılmış raportla Azərbaycan Respublikasının daxili işlər nazirinə müraciət edir.

Raporta aşağıdakı sənədlər əlavə edilir:

- şəxsiyyət vəsiqəsinin surəti;
- ali təhsil haqqında sənəd və ona əlavənin notarial qaydada təsdiq edilmiş surəti;
- xarici ölkələrdə ali təhsil almış şəxslərə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən verilən xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasını təsdiq edən sənədləri (notarial qaydada təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsi).

Əməkdaşın xidmət keçdiyi orqanda onun raportu əsasında tədris işi tərtib edilir. Tədris işinə əməkdaşın təhsil haqqında sənədlərinin əsli, xidməti xasiyyətnaməsi, kadrların uçotunun şəxsi vərəqəsi (anket), əməliyyat-sorğu uçotları üzrə yenilənmiş yoxlama tələbnamələri üzrə məlumat əlavə edilməklə Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərilir.

Daxili işlər orqanları əməkdaşlarının Akademiyaya qəbulu müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak ödənişsizdir. Daxili işlər orqanları əməkdaşlarının Akademiyanın magistraturasına qəbulu üzrə müsabiqə Polis Akademiyasında informasiya-kommunikasiya texnologiyaları vasitəsilə test üsulu ilə keçirilən qəbul imtahanından ibarətdir.

Magistraturaya qəbul imtahanı üzrə iki cəhdin keçirilməsi nəzərdə tutulur. Qeydiyyatdan keçmiş namizədlər öz istəklərinə uyğun olaraq həmin imtahanların birində və ya hər ikisində iştirak edə bilərlər. Magistratura pilləsinə qəbul zamanı ixtisas müsabiqəsində iştirak üçün qəbul üzrə verilən birinci və ikinci cəhd imtahanları arasında ən yüksək nəticə seçilir.

Magistraturaya qəbul imtahanı üzrə birinci cəhd 2025-ci ilin fevral ayında, ikinci cəhd may ayında keçiriləcəkdir.

İmtahanda bakalavrlara məntiqi təfəkkürün yoxlanılması üzrə 50, informatika üzrə 25 test tapşırığı təqdim olunacaq. Xarici dil üzrə test blokunda isə 20 test tapşırığı təqdim ediləcək, həmçinin bakalavrlar xarici dil üzrə yazı işi (esse) yazacaqlar. Xarici dil üzrə imtahan blokunda edilmiş dəyişikliklər nəzərə alınaraq imtahan müddətinə 30 dəqiqə əlavə olunmuşdur, yəni ümumi imtahan müddəti 3 saat 30 dəqiqə olacaq. Test tapşırıqlarını cavablandırmağa 3 saat, esseni yerinə yetirmək üçün isə 30 dəqiqə vaxt verilir. İmtahanın nəticələri üzrə qəbul yerlərinin sayına müvafiq olaraq minimal qəbul balından az olmamaq şərtilə ən yüksək bal toplayan 10 namizəd müsabiqədən müvəffəqiyyətlə keçmiş hesab olunur və Akademiyanın magistratura pilləsinə qəbul edilirlər.

**Daha ətraflı məlumatı DİN-in Baş Kadrlar İdarəsinin (012) 590-97-76, 17-76 (daxili), DİN-in Polis Akademiyasının 8880 qaynar xətt, (012) 454-34-57, 554-99-84 nömrəli telefonları vasitəsi ilə və ya https://www.pa.edu.az/ internet saytından əldə edə bilərsiniz.**

# Sükan arxasında əməl edək...

## Yuxuya getməmək üçün qaydalar

Avtomobil idarə etmək məsuliyyət yaradan hallardandır. Çünki özünün və digərlərinin həyatına cavabdehlik daşımaq kimi ağır bir işin öhdəsindən gəlmək, sözün əsl mənasında qəhrəmanlıqdır. Belə olan halda, avtomobili idarə edərkən qəzalardan yayınmaq, yatmamaq üçün sürücü bir çox vacib şərtlərə də əməl etməlidir. Ekspertlərin gəldiyi qənaət isə belədir:



### Yuxuya səbəb ola biləcək heç bir şey qəbul etməyin

Səyahətinizə başlamazdan əvvəl ən azı 7-8 saat yuxu yatın.Yuxuya səbəb ola biləcək qidaları yeməyin.

Söhbət ilk növbədə fast food, yağlı yeməklər və şirniyyatlardan gedir.

Həmçinin, əgər tezliklə avtomobil sürməyi planlaşdırırsınızsa, həddindən artıq yeməyin.

Səfərə çıxmazdan əvvəl sürücü yuxugətirən dərmanlar qəbul etməməlidir.

### Sərnişinlərlə söhbətlər

Avtomobil sürərkən sizinlə uzun səfərə çıxan insanlarla danışın.

Bu cür söhbətlər sayəsində yuxuya getmə ehtimalınız yoxdur.

Amma çox da özünüzü yormayın və qızğın müzakirələrə girməyin.

Əks halda diqqətiniz çox dağılacaq və bu, qəzaya düşmə riskini artıracaq.

### Salonda rahat şərait yaradın

Avtomobilin salonu sərin olmalıdır.

### Vaxtaşırı dayanmalar

Ən azı 120 dəqiqədə bir dəfə dayanın.

Yorğun olmasanız belə bu fasilələri verin.

### Məşqlər

Avtomobili təhlükəsiz yerdə saxladıqdan sonra sadə idman hərəkətləri etmək vacibdir. Bu fəaliyyət sizə kofesiz fəallaşmağa imkan verəcək.

### Əlamətləri tanıyın

Gözlərin bağlanması, diqqətin yayınması və ya tez-tez əsnəmək kimi yuxu əlamətlərini hiss edirsinizsə, dərhal dayanıb istirahət edin.

### Alternativlər

Uzun səfərlər zamanı sürücünü əvəz edəcək biri varsa, məsuliyyəti bölüşdürün. Əgər çox yorğunsunuzsa, təhlükəsizlik üçün dayanıb bir müddət yatmaq ən yaxşı seçimdir. **Təhlükəsizlik hər şeydən vacibdir! Yol yorğunluğu ilə mübarizədə diqqətli olun.**

# Qızlarının qatili olmuş “ana”

## Yaşantıların insan psixologiyasına təsiri

Tereza Cimmi Fransina Knorr 14 mart 1946-cı ildə Amerikanın Kaliforniya ştatında doğulmuşdu. Atası Cim pendir, anası Svanni isə qələm istehsal etməklə ailəni dolandırırdılar. Anası ürək çatışmazlığından vəfat edəndə Tereza 15 yaşında idi və bu hadisə onun depressiyaya düşməsinə səbəb olmuşdu. Üstəlik analığı tərəfindən basqıya məruz qalan yeniyetmə dərin sarsıntı keçirirdi.

O, 1962-ci ildə Kliffard Klayd Sandersle ailə qurur. 1963-cü ildə cütlüyün Hovard adlı oğlu dünyaya gəlir. 1964-cü ildə Tereza həyat yoldaşını güllə ilə qətlə yetirsə də məhkəmədə bu hadisəni “özünümüdafiə” kimi təqdim edərək həbsdən qurtulmağı bacarır. Sandersin ölümündən sonra Tereza Robert Vallos Knorrla görüşməyə başlayır. Bir neçə ildən sonra onların qız övladı olur. 1965-ci ildə cütlük ailə qurur və bu evlilikdən dörd uşaq- Syuzan Marlen, Uilyam Robert, Robert Vallas və kiçik Tereza Meri doğulur. Bir müddət sonra Tereza Knorrla boşanır və sonra bir neçə dəfə ərə gedir.

“Cold Case Files” sənədli serialında Knorrun qızı Terrinin müsahibəsi insanlarda təəccüb doğurur. O, iddia edirdi ki, anası həmişə öz qızlarıyla (xüsusən Syuzanla və Şeli ilə) amansızcasına davranırdı. Müxtəlif bəhanələr gətirərək onları daim döyürdü, bədənlərində siqaret söndürürdü. Hətta oğlanlarına bacılarını döyməyi öyrədirdi.

Tereza Knorr heç bir səbəb olmadan 1983-cü ildə qızı Syuzanı güllə ilə vurur. Güllə Syuzanı ağır yaralayır, lakin öldürmür. Qızının sağ qaldığını görən “ana” onu “sağaltmağa” çalışsa da cəzalanacağından qorxaraq təcili tibbi yardıma müraciət etmir. Qızının bədənindən gülləni çıxarmaq üçün istifadə etdiyi alətlər steril olmadığından Syuzan sarılığa yoluxur. Bir müddət sonra onun psixoloji durumu ağırlaşır, dəlilik əlamətləri özünü göstərməyə başlayır. Tereza digər uşaqlarını inandırmağa çalışırdı ki, bacıları iblislər idarə edir. Qızını iblisin əlindən almaq üçün o daha dəhşətli bir plan hazırlayır. 1984-cü ildə Syuzana aid olan hər şeyi onunla birlikdə yandırır. Tereza Syuzanı Serra-Nevada dağlarına aparmaq işini isə oğlanlarına tapşırır. Sonradan qətlin izinə düşən polislər tədqiqatlar nəticəsində Syuzanın diri-diri yandırıldığını müəyyən edirlər. Tereza digər qızı Şeliyanı fahişəliklə məşğul olmağa məcbur edirdi. Daha sonra o, Şeliyanı onu zöhrəvi xəstəliyə yoluxdurmaqda ittiham etdi və cəza olaraq onu otaqda bağlı saxladı. Bir neçə həftədən sonra qız aclıqdan öldü.

1993-cü ilin 28 oktyabrında Terezanın qızı Terri “America’s Most Wanted” verilişinə baxdıqdan sonra polisdən həqiqətin üzə çıxması üçün kömək istəyir. Aparılan araşdırmalardan sonra Syuzanın cəsədi tapılır. Elə həmin ilin noyabrında qatil ananı polis Salt Lake City-dəki evində tutur. Oğlu Villiam isə yaşadığı və işlədiyi Voodland şəhərində yaxalanır.

Tereza polisləri inandırmağa çalışırdı ki, cinayətləri o törətməyib, qızlarının qatili o deyil. Lakin oğlanlarının onun əleyhinə şahidlik etdiyini bildikdən sonra başqa şansı qalmır və həqiqəti etiraf edir.

Terezaya 1995-ci ilin oktyabrında ömürlük həbs cəzası verilir. Onun cinayət işində 2027-ci ildən tez olmayaraq apelyasiya məhkəməsinə müraciət edəcəyi qeyd olunub. Tereza həyatdadır, lakin kiçik yaşlarından onun cinayətlərinin şahidi olan yeganə qızı Terri 2011-ci ildə dünyasını dəyişib.

Qeyd edək ki, 2010-cu ildə ekranlara çıxmış “The Afflicted” (həmçinin “Another American Crime”) adlı qorxu filmi Tereza Knorrun cinayətlərindən bəhs edir.

*Aytən Tahirova*
*polis baş leytenantı*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik